# CÜMHURİYYƏT DÖVRÜ AZƏRBAYCAN ƏDƏBİYYATININ TƏDRİSİ TARİXİ

**Nazilə Abdullazadə**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*hhtp:/ORCID.org./0000-0002-1829-7178*
*nazile.s.m.d.@mail.ru*

**Xülasə**

Azərbaycan pedaqoji fikir tarixində Cümhuriyyər dövrü elə bir dövr idi ki, bu illərdə maarif və ədəbiyyat sahəsində irəliləyişlər özünü göstərir, ilk dərsliklər, lüğət kitabları, proqramlar yazılırdı. Bu vəsaitlərdə özünü göstərən çatışmazlıqlar onların maarif sahəsinə ayaq açmasının qarşısını ala bilmir, əksinə, ilk vəsait kimi pedaqoji ictimaiyyət tərəfindən qəbul edilirdi.

Cümhuriyyət dövründə bir çox sahələrdə olduğu kimi, təhsildə də tədbirlər həyata keçirilirdi. Xüsusi olaraq dərslik problemləri ilə bağlı məsələ qaldırıldı, dərsliklərin hazırlanması üçün komissiyalar yaradıldı. Qısa müddətdə 3 hissədən ibarət dərsliklər nəşr olundu:"Yeni Mekteb", "Edebiyat Dersleri", "Müntəxəbat", "Müəllim-Sərf", "Sərfi-Türki", "Türk Çələngi", "Hikməti-Tərbiyə". Azərbaycanlı uşaqlara ana dili öyrədilir, dərslərin haqqı dövlət tərəfindən ödənilirdi.

**Açar sözlər**: cümhuriyyət, təhsil, dərslik, milliləşdirmə, tədris.

# THE HİSTORY OF THE TEACHİNG OF AZERBAİJANİ LİTERATURE DURİNG THE REPUBLİC PERİOD

**Nazile Abdullazade**
*Azerbaijan State Pedagogical University*

**Abstract**

Athough Azerbaijani people were subjected to national, moral pressure and political changes throughout history, with the ancient, rich cultural and historical heritage they managed to preserve their traits. The reason why Azerbaijani people did not lag from other nations, who were at the forefront of socio-political processes at the beginning of XX century, was the strength of

their intellectual potential, the struggle of the progressive intelligentsia and public figures.

During the Republic period, great changes were realised in many spheres as well as in the field of education. In particular, a problem of textbooks was raised and commissions were formed for prepering of these textbooks. In a short time, textbooks of three series were published named “Yeni mekteb”, “Edebiyyat dersleri”, “Muntakhabat”, “Muellim-serf”, “Serfi-Turki”, “Turk chelengy”and “Hikmeti-terbiye". The Azerbaijani language was taught to native children and lesson fees were paid for by the state.

**Keywords:** republic, education, textbook, nationalization, teaching.

## ИСТОРИЯ ПРЕПОДАВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЫ В РЕСПУБЛИКАНСКИЙ ПЕРИОД

**Назиля Абдуллазаде**

*Азербайджанский государственный педагогический университет*

**Резюме**

В истории азербайджанской педагогической мысли республиканская эпоха была периодом, когда был достигнут прогресс в области образования и литературы, написаны первые учебники, словари, программы. Недостатки этих инструментов не помешали им войти в сферу образования, наоборот, они были приняты педагогическим сообществом как первые инструменты.

В республиканский период, как и во многих сферах, произошли большие изменения в сфере образования. Специально поднимался вопрос о проблемах учебников, были созданы комиссии по подготовке учебников. За короткое время были изданы пособия в 3-х частях «Ени мектеб», «Эдебият дерслери», «Мунтахабат», «Муэллим-серф», «Серфи-Турки», «Тюрк челенги», «Хикмети-тербие». Национальные дети обучались родному языку, а плата за уроки оплачивалась государством.

**Ключевые слова:** республика, образование, учебник, национализация, обучение

## Giriş /Introduction

Qədim və zəngin mədəni-tarixi irsə malik Azərbaycan xalqı tarix boyu milli-mənəvi təzyiqlərə, siyasi təbəllüdatlara məruz qalmış olsa da, öz simasını qoruyub saxlaya bilmişdir. XX əsrin əvvəllərində ictimai-siyasi proseslərin

önündə gedən Azərbaycan xalqının digər xalqlardan geri qalmamasının bir səbəbi də intellektual potensialının gücü, qabaqcıl mütərəqqi görüşlü ziyalıların, ictimai xadimlərin mübarizəsi idi. Bu "irəliləyişə və əlverişli tarixi-siyasi şəraitə Azərbaycan xalqının milli-mədəni və sosial-mənəvi cəhətdən hazır olması da möhkəm etibarlı zəmin hazırlamışdı. Belə ki, Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Hənəfi Zeynallı, Səid və Cəlal Ünsizadə qardaşları, Əlimərdan bəy Topçubaşov, Əkbər Ağayev, Haşım bəy Vəzirov, Nəriman Nərimanov, Nəcəf bəy Vəzirov, Məhəmməd ağa Şahtaxtlı, Cəlil Məmmədquluzadə, Firudin bəy Köçərli, Abdulla Şaiq Talıbzadə və başqalarının səmərəli fəaliyyətləri, habelə siyasi partiyaların və ictimai birliklərin milli-mədəni atmosferdə yaratdığı sosial-siyasi yetkinlik, "milli dirilik" axtarışlarının həm də ideya-siyasi məzmun kəsb etməsi Azərbaycanın qabaqcıl görüşlü ictimaiyyətinin milli müstəqillik uğrunda mübarizəyə səfərbərliyini təmin etmişdi" [AXC, 2009:197]. Məhəmməd Hadi, Abdulla Şaiq, Umgülsüm, Əhməd Cavad, Seyid Hüseyn, Cəfər Cabbarlı, Əli Yusif, Gəncəli Davud, Abdulla Qayıbov, Mirzə Bala Məmmədzadə və başqalarının yaradıcılığında türk ruhu, türk dünyasının əzəmət və qüdrəti ilə yanaşı, onun gələcək tarixi taleyi ilə bağlı əsərlər də meydana çıxmağa başladı.

**Cümhuriyyət dövründə təhsil.**

Cümhuriyyət dövründə bir çox sahələrdə olduğu kimi, təhsildə də tədbirlər həyata keçirilirdi. Bu tədbirlərin başında Avropada oxumuş, maarifçiliyin dəyərini və qədrini bilən insanlar dayanırdı; Nəsib bəy Yusifbəyli, Həmid bəy Şahtaxtinski, Rəşid xan Qaplanov, Nurməmməd bəy Şahsuvarov, Fətulla bəy Rizabəyov, Azad bəy Əmirov, Eynül xanım Yusif-bəyli. Təhsil və maarif sahəsində işləri 1919-cu ildə yaradılmış Xalq Maarif Nazirliyi həyata keçirirdi.

1918-ci il 27 iyulda Azərbaycan hökuməti dövlət dili haqqında qanun qəbul etdi, sənədləşmə işləri Azərbaycan dilində aparılmağa başlandı.

İlk maarif naziri Nəsib bəy Yusifbəylinin başçılığı ilə həyata keçirilən ilk tədbir təhsil müəssisələrinin milliləşdirilməsi oldu. Təhsil müəssisələrində təlimin Azərbaycan dilində aparılması nəzərdə tutulurdu. İbtidai siniflərdə tədris ana dilinə keçsə də, pedaqoji kadr və dərslik çatışmazlığı milliləşdirmə ilə bağlı tədbirlərdə çətinliklər yaradırdı. Buna görə hökumət qərarda bir sıra dəyişikliklər etməli oldu; məktəblərin yeni şəraitə uyğunlaşdırılması, yeni nəsil hazırlanması, milli dövlətçilik ideyalarının həyata keçirilməsi qarşıya qoyulurdu. 1918-ci ildə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi

Qazaxa köçürüldü, Bakıda kişi gimnaziyası açıldı, müəllim hazırlığı kursları təşkil edildi.

1919-cu ildə BDU-nun təsis edilməsi barədə qanun qəbul edildi. 4 fakültə – tarix-filologiya, fizika-riyaziyyat, hüquq, tibb fakültəsi ilə universitet fəaliyyətə başladı. Mədəni-maarif cəmiyyətləri, kitabxanalar fəal maarifçilik işləri aparmağa başladılar [AXC, 2004:435-436]. 1920-1921-ci ildə Xalq Maarif Nazirliyi tərəfindən Pedaqoji İnstitutun açılması qərara alındı.

1919-cu ildə türk müəllimlərinin I qurultayı işini başa çatdırdıqdan sonra Xalq Maarif Nazirliyi yanında islahat komissiyası yaradılır. Komissiya qarşısında növbəti dərs ilinin əvvəlinə kimi məktəb islahatı, həmçinin təhsilin məzmunu ilə bağlı məsələlərin həlli üzrə hökumət proqramını hazırlamaq vəzifəsi qoyulmuş, məktəb proqramlarının dəyişdirilməsi üzrə ayrı-ayrı fənn komissiyaları yaradılmışdı.

İlk dəfə ADR dövründə orta təhsi milliləşdi. O vaxta qədər Azərbaycanda ana dilində orta məktəb yox idi. Ana dili o dövrün məktəblərində həftədə bir-iki dəfə keçilən məcburi fənn hesab olunurdu. 28 avqustda məktəblərin milliləşdirilməsi haqqında çıxarılan qərarda təhsil müəssisələrində təlimin ana dilində aparılması nəzərdə tutuldu. İlk dəfə olaraq azərbaycanlı uşaqların doğma dildə təhsil almaq, öz dilini, ədəbiyyatını, tarixini və mədəniyyətini öyrənmək hüququ qanuniləşdirildi.

**Cümhuriyyət dövründə dərslik və proqramların hazırlanması.**

1919-cu ildə Azərbaycan müəllimlərinin qurultayı keçirildi. Qurultayda yeni proqram və dərsliklərin hazırlanması, müəllimlər seminariyalarının açılması, müəllimlərin maddi vəziyyətinin yaxşılaşdırılması kimi məsələlər müzakirə olundu. Xüsusilə dərslik məsələsi kəskinliklə qoyulur, dərsliklər tərtib etmək üçün komissiyalar yaradılırdı. Qısa müddət ərzində 3 hissəli "İkinci il", "Ədəbiyyat dərsləri", "Müntəxəbat", "Yeni məktəb", "Müəllimi-sərf", "Sərfi-türki", "Türk çələngi", "Hikməti-tərbiyə" dərslikləri hazırlandı. Qeyri-millətlərdən olan uşaqlara ana dili dərsləri keçilirdi və bu dərslərin xərcini dövlət ödəyirdi.

1919-cu ildə nazir Kaplanovun göstərişi ilə xalq maarifi şöbəsinin rəisi Azad Əmirov görkəmli maarif xadimlərindən Fətulla bəy Rzabəyli, Pənah Qasımov, Süleyman Sani Axundov, Abdulla Şaiq, Mahmud bəy Mahmudbəyov, Camo Cəbrayılbəyli, Səməd bəy Acalov və digər məktəb müdirlərinin iştirakı ilə dərs proqramlarının müzakirəsini keçirdi.

Fənlər üzrə yaradılan komissiyalar içərisində Ədəbiyyat fənni üzrə Mahmud Mahmudbəyovun başçılığı ilə 7 nəfərdən ibarət komissiya yaradıldı və məktəblər üçün yeni proqramların tərtibinə başlanıldı. Köhnə proqramlarda diqqət rus ədəbiyyatına, Rusiya tarixinə verilir, xalqın dili, ədəbiyyatı və tarixi kölgədə qalırdı. Yeni proqramlara əsasən bütün siniflərdə türk xalqları tarixi öyrədilməyə başlandı. Cümhuriyyət dövrü təhsil siyasətinin bir uğuru da əlifba məsələsi idi. Mütərəqqi qüvvələrin əlifba islahatı məsələsini qaldırması Abdulla bəy Əfəndiyevin Maarif Nazirliyinə latın qrafikalı yeni türk əlifbasının təqdim edilməsi ilə nəticələndi.

Təhsil siyasətində dərsliklərin yerli (milli) müəllimlər tərəfindən hazırlanmasına xüsusi diqqət yetirilirdi. Hüseyn Cavid, Mahmud Mahmudbəyov, Rəşid bəy Əfəndiyev, Abdulla Şaiq, Camo Cəbrayılbəyov, Ağabəy, Səməd bəy Acalov dərsliklərin hazırlanmasında yaxından iştirak edirdilər. Təkrar nəşrlərlə yanaşı, yeni yazılan dərsliklər hökumətin ayırdığı vəsait hesabına elə həmin il nəşr edilib məktəblərə verilirdi. Yeni yazılan ədəbiyyat dərslikləri bunlar idi:



1. “Türk əlifbası və ilk qiraət” (M.Mahmudbəyov, 1918)
2. “Türk qiraəti” (R.Əfəndiyev, 1918)
3. “Yeni məktəb” (A.Saiq, M.Mahudbəyov, 1918)
4. “Rəhbəri-sərf” (Q.R.Mirzəzadə, M.S.Axundov, 1918)
5. “Sərfi-türki” (R.Əhməd, 1919)
6. “Son türk əlifbası” (A.Axundov, 1919)
7. “Tarixi-təbii” (C.Cəbrayılbəyli, 1919)
8. “Ədəbiyyat dərsləri” (H.Cavid, A.Şaiq, 1919)
9. “Milli qiraət” (A.Şaiq, 1919)
10. “Türk ədiblərindən nümunələr” (Müntəxəbat, 1919).
11. “Türk ədəbiyyatı” (A.Şaiq, 1920)

Göründüyü kimi, cümhuriyyət dövrü orta məktəblər üçün dil-ədəbiyyat dərslərinin tədrisi məqsədilə kifayət qədər dərsliklər yazılıb istifadəyə verilir. Bunlarla yanaşı, Türkiyədən də kifayət qədər kitab və dərsliklər gətirilir: “Türk çələngi”, “Müntəxəbat”, “Ədəbiyyat dərsləri”, “Aşıqlar eli”, “Hikmət təbi”, “Keçmiş günlər”, “Turanlının dəftəri”, “Türk dili”, “İkinci il”, “Türkcə qiraət” və s.

Bu dövrdə yazılan dərsliklər vahid proqram olmadığından müəlliflərin dərslik ehtiyacını ödəmək üçün hasilə gətirdikləri tədris vəsaiti idi. Bu mənada dərsliklərdə Azərbaycan ədəbiyyatının sistemli və tarixi-xronoloji prinsip əsasında tədrisindən danışmaq faydasızdır. Klassik irsin ümumiyyətlə tədrisə gətirilməsi çətinliklərlə qarşılaşırdı. Müəlliflər Türkiyə ədəbiyyatı nümayəndələrinin əsərlərindən müxtəlif mövzuda bədii mətnlər seçir, onları sadələşdirərək dərsliyə daxil edirdilər. 1912-ci ildə nəşr olunan "Gülzar" dərsliyi məzmunu və tərtibi prinsiplərinə görə özündən sonrakı dərsliklər üçün örnək sayıla bilər.

Məktəblərin aşağı sinifləri üçün nəzərdə tutulan "Türk əlifbası və ilk qiraət" (M.Mahmudbəyov) dərsliyinin tərtibində də A.Şaiqin "Gülzar" dərsliyinin metodik prinsipləri özünü göstərir. Dövrünə görə "Türk əlifbası və ilk qiraət" dərsliyi əlifbanın öyrədilməsi üçün mükəmməl dərslk sayıla bilər. "Bismillahir-rəhmanir-rəhim" sözləri ilə başlayan dərslikdə "A" hərfindən başlamış bütün hərflər hecalarla öyrədilir. Hər hərfin öyrədilməsində o hərflə başayan sözlərə aid şəkillər də verilir. Əlifba bitdikdən sonra kiçik mətnlər verilir. İlk mətn "Dərs otağı" adlanır. Bu başlıq altında sinifdə olan əşyalar, yazı ləvazimatları və s. ilə uşaqlar tanış olur. "Fəsillər", "Bizim ev", "Bağça", "Yaxşı yoldaş" mətnləri kiçikyaşlı uşaqların oxusu üçün nəzərdə tutulmuş sadə, anlaşıqlı bir üslubda yazılmışdır.



"Rəhbəri-sərf" dərsliyi (Q.R.Mirzəzadə, M.S.Axundov) dil qaydalarına həsr olunmuşdu. 6 dərsdən ibarət dərslikdə ilk dərs səslər və hərflərin öyrədilməsi ilə başlayırdı. Heca, cümlə, izafət, feillər, köməkçi sözlər və s. ilə bağlı qaydalar sadə, anlaşıqlı dillə izah edilir, nümunələr verilirdi [Mirzəzadə, 1918]· Gətirilən nümunələr aydın olsun deyə, dərslik müəllifləri sadə cümlələr qurmuş, hər br anlayışın şərhində dil terminlərinin mahiyyətinin qavranılmasına çalışmışlar.



"Yeni məktəb" (M.Mahmudbəyov, A.Şaiq) dərsliyindəki mətnlər 9 başlıq altında qruplaşdırılmışdı. "İnsan", "İl arasında", "Kömək və ittifaq", "Heyvanat", "Nəbatat", "Su – digər", "Coğrafiyaya dair məlumatlar" bölmələrində verilmiş bilgilər ensiklopedk xarakter daşıyırdı. Müəlliflər kiçik mətnlərlə yer üzünü səyahətə

çıxır, müxtəlif qitələrdə yaşayan insanları tanyırlar. "İnsan" bölməsində bədən, qan, diş, qanın bədəndə dolanması, beş duyğu və s. barədə şagirdlərdə lkin təsəvvür formalaşdırıldıqdan sonra "Cansağlığı və naxoşluq", "Təmizlik cansağlığına səbəbdir" mətnlərində tövsiyələr, məsləhətlər verilir. "Heyvanat" bölməsində insanların dostu olan ev heyvanları istiqanlı heyvanlar, meşədə yaşayan vəhşi heyvanlar soyuqqanlı heyvanlar adlandırılır. Ət yeyən yırtıcı quşlar, məməli heyvanlar barədə mətnlər Həsən bəy Zərdabidən götürülmüş, hətta Sabirin Krılovdan təbdil etdiyi "Qarğa və tülkü" təmsili bədii oxu nümunəsi kimi verilmişdir.

Oxu nümunələri ilə yanaşı, mətnlərarası yazı ilə bağlı verilən tapşırıqlar qrammatik qaydaların mənimsənilməsinə yönəlmişdi.

1919-cu ildə ədəbiyyat nəzəriyyəsi məsələlərinə həsr olunmuş dərslik nəşr olunur. Abdulla Şaiq və Hüseyn Cavidin birgə hazırladıqları "Ədəbiyyat dərsləri" kitabında ilk dəfə olaraq ədəbiyyat terminlərinin izahı verilir. "Qəvaidi-ədəbiyyat" kitablarına da böyük bir ehtiyac olduğunu anlayan müəlliflər sənət və sənayeyi-nəfsə, ədəbiyyat, şeir, şair, ədib, mövzu, məal, məcaz, təşbih, istiarə, nəzm, nəsr, ədəbiyyatın növləri və s. terminlərin olduqca anlaşıqlı bir dildə şərhini vermişlər. A.Şaiqin "Türk çələngi", A.Şaiqlə M.Mahmudbəyovun "Milli qiraət" kitabları da bu dövrdə çıxmışdır" [AXC, 2009:291]˙.

Dövrün ədəbi tənqidində tədris kitabları barədə müxtəlif mülahizələr irəli sürülürdü. "Qiraətdən kitablarımız" adlı silsilə məqalələrində Rəşid bəy Əfəndiyevin "Bəsirətül-ətfal", Abdulla Şaiqin "Gülzar" və Fərhad Ağazadənin "Ədəbiyyat məcmuəsi" dərsliklərindən bəhs edən Yusif Qasımov Azərbaycan xalq klassik ədəbiyyatına az yer ayrılmasını həmin dərsliklərin əsas nöqsanlarından biri kimi göstərirdi. O, F.Ağazadənin "Ədəbiyyat məcmuəsi" dərsliyində milli ədəbiyyat nümunələrinə az yer ayrılması ilə razılaşa bilmirdi: "Əcəba, necə ola bilər ki, türk ədəbiyyatını təmsil üçün təyin olunmuş bir kitabda onun nazənin çiçəklərindən təmsil edən Vaqif, Mirzə Fətəli, Seyid Əzim, Sabir və bu kimi şüəramız unudulub guşeyi nisvanə atılsın?"

Tənqidçi həmçinin A.Şaiqin "Gülzar" dərsliyini də bu cəhətə görə qüsurlu hesab edirdi. Onun fikrincə, ədib (A.Şaiq – N.A.) M.F.Axundovun yalnız "Aldanmış kəvakib" əsərini dərsliyə daxil etməsi ilə kifayətlənməməlidir. Axundovun ədəbiyyatımızda əsasən komediya janrını gətirməsilə yenilik etdiyini nəzərə alaraq, o tələb edirdi ki, müəllif ilk növbədə dramaturqun komediyalarını dərsliyə daxil etsin: "Və halonki Mirzə Fətəlinin varlığı onun komediyalarıilədir. Milli ədəbiyyat nümunələri ilə aşina etmək fikrində olub,

ədəbiyyatımızın Hacı Qara, Molla İbrahimxəlil kimyagər, Dərviş Məstəli şah və s. kimi tip növlərini unutmaq böyük səhv və xəta deyilmi?”

Ola bilər ki, Yusif Qasımovun bu fikirləri pedaqoji baxımdan qüsurlu olsun, şagirdlərin yaş xüsusiyyətlərini əks etdirməsin, ancaq çox qiymətli cəhət ondadır ki, tənqidçi Azərbaycan ədəbiyyatının və onun görkəmli nümayəndələrinin öyrədilməsi və təbliği məsələlərini irəli sürür, məktəb qiraət dərsliklərində milli ədəbiyyat nümunələrinə az yer verilməsindən şikayətlənirdi [AXC, 2009:298].

Cümhuriyyət dövrü dərsliklərində türk şairlərindən Ziya Göyalp, Məhəmməd Əmin bəy, Tofiq Fikrət, Rza Tofiq, Cənab Şihabəddin bəy, Mahmud Əkrəm və başqa ədiblərin əsərlərindən nümunələr üstünlük təşkil edirdi.

**Nəticə / Conclusion**

Prof. Rüfət Hüseynzadə yazır: “Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ümumi təhsilə, ümumi təhsil müəssisələri şəbəkəsinin inkişafına müstəsna əhəmiyyət verməsinin bir göstəricisi də bu idi ki, milli hökumət əvvəlcə ölkədə hamılıqla icbari ibitdai təhsilə, sonra isə ümumi orta icbari təhsilə keçidi özünün təhsil siyasətində prioritet istiqamət hesab edirdi” [Hüseynzadə, 2019:368]. Dərslik hazırlığı sahəsində nəşr olunan ədəbiyyat dərslikləri bu baxımdan cümhuriyyətin təhsil siyasətində önəmli yer tutur.

## Ədəbiyyat /References

1. Abasov, Abbas (1986). Mətbuat və ədəbiyyat (1920-1930). − Bakı: Azərbaycan Dövlət Universiteti. − 81 s.

2. Ağayev, Əjdər (1987). Fərhad Ağazadənin pedaqoji görüşləri. − Bakı: Maarif. − 122 s.

3. Azərbaycan Xalq Cümhuriyyəti (2004). − Bakı:Lider nəşriyyat. –439 s.

4. Azərbaycan Xalq Cümhuriyyəti (ədəbiyyat, dil, mədəni quruculuq) (2009). − Bakı: “Qoiot Okup” QSC. – 336 s.

5. Əfəndiyev, Rəşid (2010). Uşaq bağçası (dərslik). Transliterasiya və faksimile. − Bakı: “ABU”. − 132 s.

6. Əhmədov, Camal (1992). Ədəbiyyatın tədrisi metodkası. − Bakı: Bakı Universiteti Nəşriyyatı. − 455 s.

7. Hüseynzadə, Rüfət (2019). Azərbaycan məktəb və pedaqoji fikir tarixi. – Bakı: ADPU nəşriyyatı. – 538 s.

8. Mirəhmədov, Əziz (1956). Abdulla Şaiq. − Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı. − s.87

9. Mirzəzadə, Qafur Rəşad, Axundov, Məhəmmədsadıq (1918). Rəhbəri- sərf. – Bakı: − 62 s.

10. Seyidov, Əhməd (1987). Azərbaycan pedaqoji fikrinin inkişaf tarixindən. − Bakı: Maarif. − 304 s.

11. Şaiq, Abdulla (1910). Türk ədəbiyyatı. − Bakı: Orucov qardaşları mətbəəsi. − 79 s.

12. Şaiq, Abdulla (1912). Gülzar. − Bakı: Orucov qardaşları mətbəəsi. − 287 s.

13. Talıbov, Yusif, Sadiqov, Fərahim, Quliyev, Sərdar (2005). Azərbaycanda məktəb və pedqoji fikir tarixi. − Bakı: "Ünsiyyət". − 513 s.

**Məqalə tarixçəsi**

*Daxil olub* 23.02.2024

*Qəbul edilib* 10.03.2024

*Nəşrə tövsiyə edib* Tamilla Vahabova

*pedaqogika elmləri doktoru, dosent*